**Adilqızı N.** Qəhrəmanlıq dastanı yazan oğullar // Respublika. - 2024. - 19 iyul. - **№ 150**. - S. 10.

**Şəhidlik zirvəsinə yüksələn mərd oğullarımızdan biri də Sərxan Ocaqverdiyevdir.**

Sərxan Surxay oğlu Ocaqverdiyev 1967-ci il iyulun 16-da Goranboy rayonunun Səfikürd kəndində anadan olub. Ailənin 8 övladından biri olan Sərxan. 1985-ci ildə Tatarlı kənd orta məktəbini bitirdikdən sonra Xabarovsk şəhərində hərbi xidmətdə olub. 1988-ci ildə Vətən qarşısında borcunu yerinə yetirəndən sonra Gəncə Maşınqayırma Texnikumuna daxil olmuşdur. 1991-ci ildə təhsilini uğurla başa vurub Gəncə Maşınqayırma Zavodunda əmək fəaliyyətinə başlayır. Sərxan 1992-ci ildə Goranboy özünümüdafiə batalyonuna daxil olur. Şəfəq, Zeyvə, Tap-Qaraqoyunlu kəndlərinin müdafiəsi zamanı qanlı döyüşlərdə iştirak edir, düşmənin xeyli canlı qüvvəsini məhv edərək yüksək döyüş nümunəsi göstərir.

Goranboyun Talış kəndi ermənilərə ərazicə ən yaxın kənd hesab olunurdu. Onlar bu kəndə aramsız hücumlar edirdilər. Lakin Goranboyun mərd oğulları sinələrini düşmənin qarşısında sipərə çevirmişdilər.

5 may 1992-ci il... Erməni faşistləri növbəti dəfə Talış kəndinə hücuma keçmişdilər. Vətənin qeyrətli oğlu Sərxan Ocaqverdiyev də elə qeyri-bərabər döyüşdə qəhrəmancasına həlak olur, Səfikürd kəndində dəfn edilir. Azərbaycan Prezidentinin 7 iyun 1992-ci tarixli sərəncamı ilə Ocaqverdiyev Sərxan Surxay oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib. Təhsil aldığı Tatarlı kənd orta məktəbi onun adını daşıyır. Goranboy rayonunda büstü qoyulub.

Ad günü ərəfəsində Sərxan Ocaqverdiyevin anası Gülzar Ocaqverdiyeva ilə görüşdük, nə qədər çətin olsa da oğlu haqqında təəssüratlarını öyrəndik. Göz yaşları içində dərindən köks ötürərək dedi: "Sərxan çox vətənpərvər idi. O, Xocalı soyqırımından sonra bu faciəyə dözə bilməyib könüllü Goranboy müdafiə batalyonuna yazılmışdı. Qanlı döyüşlərin birində qəhrəmancasına şəhid oldu. Mən fəxr edirəm ki, elə bir oğulun anasıyam. O uşaqlıqda qardaş bacılarından fərqlənirdi. Mütəmadi idmanla məşğul olurdu. İdmanda qazandığı uğurlar da az deyildi, dəfələrlə mükafatlandırılmışdı.

Mən bu gün möhtərəm Prezidentimizə və ölkəmizin birinci xanımı Mehriban Əliyevaya sonsuz təşəkkürlərimi bildirirəm. Tanrı onları qorusun, necə ki, onlar Azərbaycanımızı, şəhid ailələrini, qazilərimizi qoruyur, onlara böyük diqqət və

qayğı göstərirlər. Prezident İlham Əliyevin "Dəmir yumruğ"u düşmənin başını əzərək Sərxan kimi minlərlə qəhrəman oğulların qisasını aldı, bununla da alnımızı açıq, başımızı uca etdi. Bu biz şəhid valideynlərinin böyük təsəllisidir. Bu gün mənim bir təsəllim də digər oğlum Sərvanın oğlu Sərxandır. Qəhrəman əmisinin adını daşıyan Ocaqverdiyev Sərxan da hərbi sahəni seçib, hazırda DİN-in Daxili Qoşunlarının Hərbi İnstitutunun 3-cü kursunda təhsil alır".

Sərxan Goranboyun Birinci Qarabağ müharibəsində qəhrəmanlıq göstərən onlarla şəhidindən biridir. Azərbaycan xalqı hər zaman torpaqlarımızın azadlığı uğrunda canını qurban vermiş şəhidlərinin xatirəsini uca tutur və onlarla fəxr edir. Şəhidlərimiz bizim azadlıq, müstəqillik, qəhrəmanlıq simvolumuzdur.

Azərbaycanın Milli Qəhrəmanı Sərxan Ocaqverdiyev yaşasaydı, 57 yaşı tamam olacaqdı. Ruhun şad olsun şəhidim.